

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 81 (23.968)

5 may 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı qəbulda çıxış edərək təbriklərini çatdırıb. Prezident İlham Əliyev qeyd edib ki, Zəngilan rayonunda böyük infrastruktur layihələri icra edilir. Onların arasında Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat infrastrukturu xüsusi yer tutur. Bu il Zəngilan Beynəlxalq Hava Limanı istismara veriləcək, bu hava limanının çox böyük funksiyaları olacaqdır. Zəngəzur dəhlizinə gəldikdə, artıq bu dəhliz reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda beynəlxalq yükdaşımaları üçün yeni beynəlxalq bir yol olacaq. Azərbaycanın əsas hissəsi Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdiriləcək, tam yeni nəqliyyat dəhlizi açılacaq.

Qarşıda duran digər vəzifələrdən də danışan dövlətimizin başçısı qeyd edib ki, Zəngilan rayonu həmsərhəd rayondur, həm İranla, həm Ermənistanla və Naxçıvana da məsafə çox yaxındır. Zəngəzur dəhlizinin işə düşməsi nəticəsində, eyni zamanda Zəngilan rayonundan İran İslam Respublikasına keçən yollar nəzərə alınmaqla ixrac bazarlarına Zəngilanda yetişdiriləcək malların çox böyük çıxış imkanı var və bundan maksimum faydalanmalıyıq.

Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev Prezident İlham Əliyevə göstərdiyi etimada görə minnətdarlıq edib.

## Türk Ağsaqqalları Birliyinin sədri və təşkilat komitəsinin üzvləri Naxçıvan Dövlət Universitetində



Türk Ağsaqqalları Birliyinin sədri və tərkibində millət vəkillərinin də olduğu nümayəndə heyəti Naxçıvana səfər çərçivəsində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyub, hörmət və ehtiramlarını ifadə ediblər. Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı muzeyin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev qonaqlara 10 may 1999-cu ildən fəaliyyət göstərən muzey haqqında ətraflı məlumat verib.

Naxçıvan Dövlət Universitetində keçirilən görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev rəhbərlik etdiyi universitetin 55 illik tarixi inkişaf yolu, maddi-texniki bazası, müasir tədris üsulları haqqında danışıb. Çıxış zamanı universitetin beynəlxalq əlaqələri, xarici ölkə universitetləri ilə bağladığı müqavilələr, qardaş Türkiyə universitetləri ilə ikili diplom layihələrinin mövcudluğu haqqında ətraflı məlumat verilib, ali təhsil ocağının qazandığı elmi nailiyyətlər diqqətə çatdırılıb.

Rektor Britaniya Şurasının universitetdə açdığı IELTS qeydiyyat və imtahan mərkəzinin fəaliyyətə başlamasını ali təhsil ocağının nailiyyətləri sırasında qeyd edib. Vurğulanıb ki, mərkəzin ilk imtahanı bu ilin iyun ayında keçiriləcək. Əcnəbi tələbələrin sayca üstünlüyü ilə ölkə universitetləri sırasında öz öncüllüyünü qoruyan ali təhsil ocağında 10 ölkədən 1500 tələbə təhsil alır.

TAİB sədri, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Əməkdar elm xadimi, akademik Sudeyif İmamverdiyev təhsilin və tədrisin yüksək səviyyədə təşkilindən, muxtar respublikanın tələbləri nəzərə alınmaqla aparılan kadr potensialından xüsusilə razılığını ifadə edib.

Millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Hikmət Babaoğlu universitetin yaranmasının 55 illiyi münasibətilə kollektivi təbrik edib, ali təhsil ocağının inkişaf perspektivləri ilə bağlı müəyyən məqamlara toxunub. Jurnalist, Ekspert Mərkəzinin rəhbəri Ceyhun Musaoğlu, TAİB Təşkilat Komitəsinin üzvü Eyvaz Hümbətov, Missiya Media Qrupunun baş redaktoru, Türk Ağsaqqalları Birliyinin Aparat rəhbəri Nicat Dağlar universitet haqqında xoş təəssüratlarını bölüşüb, görülən işlərdən məmnunluq hisslərini dilə gətiriblər.

Sonda TAİB sədri, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Əməkdar elm xadimi, akademik Sudeyif İmamverdiyev universitetin xatirə kitabına ürək sözlərini yazıb.

Qeyd edək ki, Türk Ağsaqqalları Birliyinin sədri və təşkilat komitəsi üzvlərinin iştirakı ilə universitetdə ustad dərsləri təşkil edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Muzey ziyarətləri davam edir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin edilib. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin öyrənilməsinə və təbliğinə hərtərəfli şərait yaradır.

Ötən şənbə günü Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Culfa rayonu ərazisində yerləşən Əlincəqala və Gülüstan türbəsi tarixi-memarlıq abidələrində olublar.

Ekskursiya ərzində qonaqlar əvvəlcə Əlincəqala Muzeyi ilə yaxından tanış ediliblər. Onlara məlumat verilib ki, Əlincəqala muxtar respublika ərazisində qeydiyyata alınmış dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri sırasındadır. Bu qala orta əsrlərdə Azərbaycanda fəaliyyət göstərmiş dövlətlərin tarixində əvəzolunmaz rol oynamış, xarici düşmənlərə qarşı müdafiə istehkamı kimi istifadə olunmuşdur.

Muzeylə tanışlıq zamanı diqqətə çatdırılıb ki, "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 2014-cü il 11 fevral tarixli Sərəncamı ilə yaradılmışdır.

Muzey ekspozisiya zalından və 2 iş otağından ibarətdir. Muzeyin fondunda, ümumilikdə, 250 eksponat vardır ki, bunlardan da 167-si muzeyin ekspozisiyasında sərgilənir.



Gülüstan türbəsi ilə tanışlıq zamanı bildirilib ki, Əcəmi Əbubəkr oğlu Naxçıvani yaradıcılığının ənənələrini özündə əks etdirən, Naxçıvan memarlıq məktəbinin ən gözəl və özünəməxsus nümunələrindən sayılan Gülüstan türbəsi orijinallığı, tikinti texnikası, gövdəsindəki naxış bəzəyi, zahiri görünüşü, memarlıq həllinin səciyyəsi ilə nadir sənət incisi kimi diqqəti cəlb edir. Türbənin üzərindəki naxışların özünəməxsus xüsusiyyətlərinə və tarixinə nəzər saldıqda demək olar ki, türbə XIII əsrdə inşa edilmişdir. Gülüstan türbəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixli Sərəncamı ilə ilkin görünüşü və tarixi arxitekturası qorunub saxlanılmaqla bərpa olunmuşdur.

Həmin gün Nazirlər Kabinetinin kollektivi Nəbatat bağında, Ali Məhkəmə, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşdırılmış məhkəmələrin əməkdaşları Milli Dəyərlər Muzeyində, Daxili İşlər Nazirliyinin kollektivi Duz Muzeyində, Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları Qarabağlar Türbə Kompleksində, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Hərbi Prokurorluq və Naxçıvan Şəhər Prokurorluğunun kollektivləri Naxçıvan Dövlət Rəsm Qalereyasında, Ədliyyə Nazirliyi və Penitensiar Xidmətin aparatında çalışanlar Cəlil Məmmədquluzadənin ev-muzeyi və xatirə kompleksində olublar. Fövqəladə Hallar Nazirliyi və struktur qurumlarının əməkdaşları Heydər Əliyev Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) aparatında fəaliyyət göstərənlər "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Maliyyə Nazirliyinin əməkdaşları Cəmşid Naxçıvanski Muzeyini, İqtisadiyyat Nazirliyinin kollektivi "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və struktur qurumlarının əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyini ziyarət ediblər. Kənd Təsərrüfatı Nazirliyi və "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin kollektivlərinə "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsi, Rabitə və Yeni Texnologiyalar Nazirliyi və struktur qurumlarının əməkdaşlarına Ədəbiyyat Muzeyi, Səhiyyə Nazirliyinin kollektivinə Naxçıvan Dövlət Tarix Muzeyi, Təhsil Nazirliyinin əməkdaşlarına Dövlət Bayrağı Muzeyi haqqında ətraflı məlumat verilib. Mədəniyyət Nazirliyi kollektivinin Xatirə Muzeyinə, Gənclər və İdman Nazirliyi əməkdaşlarının Bəhruz Kəngərli Muzeyinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi kollektivinin Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksinə, Dövlət Gömrük Komitəsində fəaliyyət göstərənlərin Naxçıvan Biznes Mərkəzinə ziyarətləri də maraqlı və yaddaqalan olub.

## "Gəncliyin missiyası: Dövlətçiliyə sədaqət" layihəsi çərçivəsində növbəti tədbir keçirilib

Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi Ərazi Partiya Təşkilatı və ali təhsil ocağının Tələbə-Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "Gəncliyin missiyası: dövlətçiliyə sədaqət" layihəsi çərçivəsində "Gənclər və Azərbaycan xarici siyasəti" mövzusunda növbəti tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, Türkdilli Dövlətlərin Parlament Assambleyasının sabiq baş katibi Ramil Həsən tələbə-gənclərlə görüşüb.

Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi partiya təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayev açaraq müasir gəncliyin müstəqil dövlətçiliyin inkişafındakı aparıcı rolundan danışıb.



Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, Türkdilli Dövlətlərin Parlament Assambleyasının sabiq baş katibi Ramil Həsən çıxış edərək bildirib ki, bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. Onlar öz həyatını qurarkən, ilk növbədə, müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, əməli fəaliyyətində yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirirlər.

Qeyd olunub ki, müstəqil Azərbaycanın dövlət gənclər siyasəti ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Həyatı boyu, respublikaya rəhbərliyinin bütün dövrlərində ulu öndər sağlamdüşüncəli gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə xüsusi əhəmiyyət verir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi. Bu gün artıq yeni bir gələcəyin addım səsləri eşidilir, Azərbaycan gəncliyi öz uğurlu missiyasını davam etdirir. Azad edilmiş torpaqlarımızı qarlı-şaxtalı səngərlərdə göz bəbəyi kimi qoruyur. Əminik ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağın çiçəklənməsində, tarixi torpaqlarımızın dirçəldilməsində də gənclərimiz yaxından iştirak edəcək. Heç şübhəsiz ki, Naxçıvan Dövlət Universitetinin fəal tələbə-gəncləri də bu sahədə öz sözünü deyəcək, nələrə qadir olduqlarını ən gözəl şəkildə nümayiş etdirəcək.

Ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, bu gün cəmiyyətimizdə savadlı, müasir dünyagörüşlü, vətənpərvər gənc kadrların formalaşdırılması mühüm dövlət siyasətinin tərkib hissəsi kimi qəbul olunmaqdadır.

Sonda tələbə-gəncləri maraqlandıran suallar cavablandırılıb.

**Məcid RƏŞADƏTOĞLU**



## Berlində Leyla Əzimbəyovanın “Fərqli olaraq” adlı fərdi yaradıcılıq sərgisinin açılışı olub

Berlinin “QGallery” İncəsənət Qalereyasında Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, Azərbaycan Rəssamlar İttifaqının üzvü Leyla Əzimbəyovanın “Fərqli olaraq” adlı fərdi yaradıcılıq sərgisinin açılışı olub.

Sərgi Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və “QGallery Baku” Rəsm Qalereyasının dəstəyi ilə təqdim olunur.

Sərgidə çıxış edənlər Leyla Əzimbəyova yaradıcılığının xüsusiyyətlərindən danışıblar, rəssamı əlamətdar hadisə münasibətilə təbrik ediblər. Ona gələcək yaradıcılıq uğurları arzulayıblar.

Sərgidə rəssamın portret, peyzaj, kompozisiya və natürmort janrlarında çəkdiyi, dərin məzmun və yaradıcılıq xüsusiyyətləri ilə seçilən 36 rəsm əsəri nümayiş etdirilir. Bu əsərlərdə həyat eşqi, insan və təbiətə doğma münasibət diqqəti daha çox cəlb edir.

Tədbirdə tanınmış ziyalılar, alimlər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Leyla Əzimbəyovanın sərgisi ilə paralel olaraq Berlindən olan rəssam Nizakət Sinanovskayanın da əsərləri təqdim olunur.

Sərgi mayın 12-dək davam edəcək.

**Vüqar SEYİDOV**
**AZƏRTAC-ın xüsusi müxbiri**
**azertag.az**
**4 may 2022-ci il**

*Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin 30-cu ilində bu sahədə misilsiz xidmətləri olan görkəmli insanlar da ehtiramla anılır. Onlardan biri də Azərbaycan istiqlal mücadiləsinin nümayəndələrindən olan tanınmış şair Əhməd Cavaddır. Bu zərurətdən irəli gələrək Azərbaycan ədəbiyyatı və ictimai fikrinin inkişafında tutduğu əvəzsiz mövqeyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Əhməd Cavadın 130 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalamışdır. Sərəncamda deyilir: “Əhməd Cavad ədəbi-bədii fikir tarixində istiqlal şairi kimi özünəməxsus dəstxəti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulmuşdur. Azərbaycanın dövlət rəmzlərini yüksək şeiriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir”. Qüdrətli söz ustadı və istiqlal şairi Ə.Cavadın 130 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında təntənəli keçirilməsini təmin etmək məqsədilə Ali Məclisin Sədri tərəfindən “Tədbirlər Planı” təsdiq edilmişdir.*

*Əhməd Cavad – 130*

# Milli istiqlal şairi

Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Əhməd Cavadın (1892-1937) yaradıcılığı Azərbaycan dövlətçiliyinin, o cümlədən Xalq Cümhuriyyətinin tərənnümü baxımından çox zəngindir. Dövlət müstəqilliyinin əldə olunmasından yaranan milli qürur, sevinc və fəxarət duyğuları milli Azərbaycan poeziyasının nəhəng siması, Azərbaycan istiqlal ədəbiyyatının nəğməkarı, görkəmli şair Əhməd Cavadın yaradıcılığında əsas yeri tutmaqla ədəbiyyatımızda yeni milli poeziya məktəbi yaratmışdır. O, Azərbaycan milli şeirinin ən qüdrətli ustadlarından biri kimi geniş şöhrət qazanmışdır. Romantik fikir və şeirin ön sıralarında dayanan şair yaradıcılığında xalqın istiqlal ideallarını əks etdirmiş və onun bayraqdarına çevrilmişdir. Dövlət müstəqilliyinin əldə olunmasından yaranan yüksək əhvali-ruhiyyə, mənəvi toxtaqlıq, müstəqillik duyğuları, azadlıq sevgisi və Vətən məhəbbəti bu dövrdə yaranan milli poeziya nümunələrində özünə geniş yer tapır ki, Azərbaycan poeziyasının mükəmməl ustadlarından olan Əhməd Cavad yaradıcılığı bu poeziyanın ən gözəl örnəyini təşkil edir. Bu qüdrətli və vətənpərvər şair Azərbaycanın ilk Dövlət Himninin sözlərini yazır, dövlət atributlarını vəsf və tərənnüm edir, dövlətçiliyə məhəbbət və Vətənə bağlılıq hisslərini təbliğ edir. Professor Yaşar Qarayev haqlı olaraq yazır: “Cümhuriyyət” deyəndə yada hamıdan əvvəl Əhməd Cavad düşür. ...Üçrəngli poeziya bədii yaddaşa hamıdan əvvəl Əhməd Cavadın qələmi ilə həkk olunmuşdur”. Bu baxımdan görkəmli Azərbaycan şairi Əhməd Cavadın yaradıcılığı dövlətçiliyə sədaqət və tərənnüm dolu nümunələri ilə fərqlənir. Əhməd Cavad o şairdir ki:

*Soranlara mən buyurdum*
*Anlatayım nəçiyəm:*
*Mən çeynənən bir ölkənin*
*Haqq bağıran səsiyəm, –*

deyə özünü mənsub olduğu xalqının və ölkəsinin “haqq səsini bağıran” ruporu hesab etmişdir. Yaradıcılığının bu xüsusiyyətlərinə görə Ə.Cavad həm də milli ədəbiyyatımızda dövlətçilik atributlarını tərənnüm edən yaradıcı sənətkarların ağsaqqalı hesab olunur. Qəlbi Vətən eşqi ilə yanan bu böyük sənətkar əsərlərində Vətənə və xalqına məhəbbətini əks etdirmiş, milli duyğuları dilə gətirmiş, elm, maarif, milli oyanış və ana dili kimi məsələləri gündəmə çıxarmışdır. Bu hisslərlə ədəbiyyata gələn şair “haqq bağıran səsi” olduğu ölkəsinin dövlət müstəqilliyi əldə etdiyi illərdə bu müstəqilliyin tərənnümçüsünə çevrilmiş, dövlət rəmzlərinə ən çox şeir qoşan və bu müstəqilliyin verdiyi qüruru daha çox tərənnüm və təbliğ edən şair kimi özünü təsdiq etmişdir. Şairin böyük məhəbbətlə yazdığı “Nədən yarandın” şeirində:

*Sən qüdrətin aşıb-coşan vaxtında,*
*Mələklərin gülüşündən yarandın.*
*...Qaranlıqda boğularkən ümidim*
*Dan ulduzu yürüşündən yarandın!*
*...Qələm əldə ilhamını dinlərkən*
*Sən qəlbimin vuruşundan yarandın! –*

deyə milli fəxarət və qürur əks etdirilir. Onun “Azərbaycan bayrağına” şeiri də bu ruhda yazılan, sənətkarın bir vətəndaş-şair olaraq dövlət müstəqilliyinə, xalqının, millətinin, Vətəninin müstəqillik simvoluna bəslədiyi sonsuz məhəbbətini, qürurverici hisslərini ifadə edir. Bu əsəri Azərbaycanın müstəqillik tarixində bayrağa məhəbbət dolu şeirlər silsiləsinin ən yüksək zirvəsi də adlandırmaq olar. Şeir özünün bədii təsir gücü, səmimiliyi və dövlətçilik dəyərlərinə vətəndaşlıq məhəbbəti ilə seçilən, bədii-estetik əhəmiyyəti ilə diqqəti cəlb edən əbədiyaşar bir əsərdir.



Diqqət edilsə, şair təkcə tərənnüm və vəsf etmir, həm də bayraqdakı rəmzi işarələrin mənasını açır, onun müqəddəsliyi və ucalığını hiss etdirir, milli dövlətçilik tarixinə nəzər salır, milli dövlətçilik ənənələrini izləyərək bu müqəddəs oğuz-türk yurdunda mövcud olmuş məşhur Elxanilər-Atabəylər dövlətlərinə işarə edir.

Ümumiyyətlə, Vətən məhəbbətinin bədii ədəbiyyatdakı bir simvolu olaraq çıxış edən bayraq mövzusu böyük Azərbaycan şairi Əhməd Cavadın yaradıcılığında əsas mövzulardan biridir. Azərbaycan Xalq Cümhuriyyəti elan edildiyi və ilk milli dövlət bayrağı qaldırıldığı 1918-ci ildə şairin şəxsən söylədiyi “Elin bayrağı” şeiri də bayrağa və onun ifadə etdiyi müstəqilliyə və azadlığa dərin məhəbbətin ifadəsidir. Şair bayrağa kəsb etdiyi məzmun və mahiyyətə əsasən qibləgah, yol göstərən kimi təqdim edir. Əhməd Cavad Azərbaycan bayrağını kamilləşmə dövrünü keçən Azərbaycançılıq ideologiyasının qibləgahı və yol göstərəni, bayrağın iman və inam yeri olduğunu bildirir. Şair:

*Təmiz al alnındakı tozu, torpağı,*
*Haqq üçün açdığın əllərinlə sil!*
*Qalxıb, bir də enməz elin bayrağı,*
*O sənin, o mənim əlimdədir, bil! –*

deyə bütün vətəndaşları bu bayraq altında Azərbaycan və Azərbaycançılığın əsgəritək birləşməyə çağırır.

Şairin bu mövzuda yazdığı “Al bayrağa” şeiri də öz təsir gücü və məzmunu etibarilə fərqlilik kəsb edir. Ritorik suallar şeirdəki təsir gücünü artırdığı kimi, müəyyən mətləbləri diqqətə çatdırmağın, vurğulamağın da öhdəsindən müvəffəqiyyətlə gəlir. Şair:

*Bu bənzəyiş nədən, gözüm*
*Şəhidlərin qanına?!*
*Uğrunda can verənlər*
*Neyçün qıyar canına?!*

*Ey sevgili bayrağımın*
*O dalğalı duruşu!*
*Sandım salam rəsmi sana*
*Buludların yürüşü! –*

misralarında Dövlət bayrağına ehtiram dəyərlərini məharətlə simvollaşdırmışdır. Bayrağın qırmızı rəngini azadlıq və istiqlaliyyət məzmununda mənalandırmaqla şair milli istiqlaliyyət mücahidlərinin xatirəsini əbədiləşdirmiş, öz varlığını istiqlaliyyətə qurban verən şəhidlərə mənəvi abidə ucaltmışdır. Övlad itkisindən içi sökülən, dərdli bir ananın, nənənin al rəngli bayrağı görəndə təsəlli tapmasını ən sadə vətəndaşın istiqlaliyyət sevgisi və milli qüruru, vətəndaşlıq vüqarı kimi dəyərləndirir. “Ellə gələn dərd toy-bayram olar” müdrikliyini özündə yaşadan ağbirçək nənə el üçün, Vətən üçün canından keçmiş övladını xatırlarkən müstəqillik simvolu olan, dövlətinin güc-qüdrət rəmzi kimi dalğalanan al bayrağı görərkən sinəsi qürur və iftixarla dolur. Qoca ana al bayrağın mavi səmada aramsız dalğalanmasını müşahidə edərkən şəhid olmuş övladının ruhunun bu dalğalar üzərində azad-azad süzdüyünü sanır. Şair al bayrağın ciddiyyət və təsir gücünü metaforalarla da daha təsirli təqdim etməyə müvəffəq olur. Qürurla sinəsini qabardıb üzü göylərə doğru zirvələrlə yarışan, səadət və xoşbəxtlik rəmzi olan ay-ulduzlu, mavi göylərə baş çəkən al Azərbaycan bayrağı dalğalanarkən Vətənin istiqlaliyyəti, ərazi bütövlüyü və dövlət müstəqilliyi uğrunda şəhid düşmüş Azərbaycan qəhrəmanlarının ruhlarından ibarət göy əsgərləri olan buludlar onun önündə salam duruşuna keçir və nizami yürüş nümayiş etdirirlər. Bayraq elə bir qürur və iftixarverici sevgiyə layiqdir ki, artıq sevdalanmış bir qız belə, ona dərin məhəbbətlə bağlanmışdır. Şairin: “Sən öylə bir şeirsən ki, sevməyənlər anlamaz!” – misrası ilə bu bayrağın sonsuz bir sevgidən, minlərlə insanın mübarizə və mücadiləsindən yaranmış dövlət müstəqilliyinin rəmzi olduğunu, üzərində minlərlə şəhidin al qanının rənginin hopduğunu ifadə etmişdir.

Vətəndaş-şair məhz bu hisslərlə, sonsuz məhəbbət və dərin iftixarla bayrağa sevgi dolu şeirlər həsr etmişdir. Əhməd Cavad digər mövzulu əsərlərində, habelə “Aşiqin dərdi”, “Bən bulmuşam”, məşhur “Göy göl” kimi şeirlərində də Azərbaycan bayrağına sevgisini poetik şəkildə ifadə etmişdir. Böyük şairin yaradıcılığında tez-tez Azərbaycan bayrağına, ayrıca aya və ulduza müraciət məhz bir vətəndaş olaraq şairin qəlbindəki xalqa, Vətənə və onun dövlət müstəqilliyinə məhəbbətinin nişanəsi, milli qürur, heysiyyət və istiqlal düşüncəsinin təcəssümüdür. O bütün yaradıcılığı ilə Azərbaycan dövlətçilik təfəkkürünün poetik ifadəçisi, dövlətçilik dəyərlərimizin tərənnümçüsüdür. Bu baxımdan bayraq və gerb sənətini öyrənən heraldika elmi ilə müqayisədə ədəbi yaradıcılığı dövlətçilik atributlarına, xüsusilə bayrağa və onun rəmzlərinə vəsflə yazılmış Əhməd Cavad poeziyasını “Heraldik poeziya” adlandırmaq olar. Bu sonsuz məhəbbətdən idi ki, Azərbaycanın dövlət müstəqilliyini itirməsi, işğalı dərdi şairi rahat buraxmamış, onun sonrakı yaradıcılıq nümunələrində bu məsələ yanıqlı şəkildə həsrətli ifadələrlə xatırlanmışdır. Sovet dövründə yazılan “Göy göl” şeirindəki bu notlar da onun vaxtilə sərt tənqid olunmasına bəhanə olmuşdur:

*Sənin gözəlliyin gəlməz ki saya?!*
*Qoynunda yer vardır Ulduza, Aya.*
*Oldun sən onlara mehriban daya,*
*Fələk büsatını qurali, Göy göl!*

Əlbəttə, misralarda Azərbaycan xalqının bu şanlı illərinin – 1918-1920-ci illərin tarixini bilənlər yaxşı başa düşür ki, Əhməd Cavad Göy gölə müraciət etməklə həm Vətəni, həm də Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı olmuş Gəncəni, bu şəhərin AXC dövründəki mövqeyini dilə gətirmək istəmişdir. Çünki AXC elan edildikdən sonra Bakı şəhəri düşmən əhatəsində olduğu üçün müstəqil dövlətin paytaxtı Tiflisdən Gəncə şəhərinə köçməli olmuşdur. Şair də həmin misralarla dönəmləri xatırlatmış, Azərbaycanın bu müstəqillik illərinin həsrət duyğularını ifadə etmişdir. Bu baxımdan akademik Kamal Abdullanın böyük şair Hüseyn Cavid haqqında dediyi bu sözləri Əhməd Cavada da şamil etmək olar ki: “Azərbaycan yaradıcı fikri süni misralar təlatümündə boğulduğu bir zamanda həyatı bahasına olsa da, ...öz sənət idealına xain çıxmamış, onu satmamışdır”. “Keçmişdir onlara qəzəbin niyə, Düşmüşlərdir səndən aralı, Göy göl?!” – deyən şairin Vətənindən didərgin düşmüş mühacir cümhuriyyət, müstəqillik mücahidlərinə işarə etdiyini açıq-aydın başa düşmək mümkündür. Şeirin:

*Bir sözün varmıdır əsən yellərə,*
*Sifariş etməyə uzaq ellərə?*
*Yayılmış şöhrətin bütün dillərə,*
*Olursa, qoy olsun haralı, Göy göl! –*

bəndində dünyanın müxtəlif ölkələrinə səpələnərək mühacir ömrü yaşayan Azərbaycanın müstəqillik mücahidlərinə salam, mesaj göndərmək fikri hakimdir. Azərbaycan müstəqilliyini özündə simvolizə edən Göy gölə sədaqət və məhəbbət şairin Göy gölə həsr olunmuş digər şeirində də var. “Assınlar məni! Kəssinlər məni! Qoy türmələrə bassınlar məni!” təhdidi, təqibi, təhlükəsi altında amalına, Vətəninə sədaqətli vətəndaş-şairin “Neynirəm könlü? Neynirəm dili? Səndən yazmasam, Neynirəm əli?” niyyəti, məqsədi dimdik dayanır. Zəmanənin çətinliyini şeirdəki misraların fikir təzadları da aydın təzahür etdirir. Şair açıq cəsarətlə Vətənini, bayrağını, müstəqilliyini sevdiyi, dilə gətirdiyi üçün zindanlara düşdüyünü yazdığı kimi, “Nəsən, kimsən sən? Nisgilimsən sən! Qoy açıq deyim: Sevgilimsən sən!” kimi misralarındakı “sevgilimsən, nisgilimsən” təzadı da aydın nümayiş etdirir. Yəni “Vətənini əsl mənada sevməyin nisgil olduğu bir zaman” bundan artıq öz ifadəsini tapa bilməz. Zəmanənin mürəkkəbliyi, çətinliyi “Kür” əsərində də özünü hiss etdirir. “Əyil, Kürüm, əyil, keç, meydan sənin deyil, keç!” misraları da zəmanənin milli iradəni qıran və əyən bir zəmanə olduğunu çox aydın əks etdirir.

Ümumiyyətlə, dövlətçilik yönlü Azərbaycançılıq məfkurəsi Əhməd Cavad yaradıcılığı üçün səciyyəvidir. Əhməd Cavadın “Nədən yarandın”, “Azərbaycan bayrağına”, “Elin bayrağı”, “Al bayrağa” kimi şeirləri sırf dövlət müstəqilliyini simvolizə edən bayrağa məhəbbət ruhunda yazılan və Azərbaycançılığı tərənnüm və təbliğ edən əsərlərdir. Əhməd Cavad poeziyasında milli düşüncə təkcə Azərbaycan və Azərbaycançılıqla məhdudlaşmamış, ümumən, türk və türkçülük ideyası ilə çulğalaşaraq turançılığı da əhatə etmişdir. Bu mənada, Əhməd Cavadın milli məfkurəsi ümumtürk nüvəli Azərbaycançılıq ideologiyasıdır. Bu məhəbbətdən və bağlılıqdan irəli gəlirdi ki, onun şeirlərində türk düşüncəli poetik nümunələr də özünə xeyli sayda yer tutmuş, xüsusilə “Çırpınırdı, Qara dəniz”, “İstanbul”, “Şəhidlərə”, “Türk ordusuna”, “Ey əsgər” kimi şeirlərində milli sevgi duyğuları və Turan məhəbbəti ifadə olunmuşdur.

*Bu gün Böyük Vətən müharibəsi Zəfərinin əhvali-ruhiyyəsi içərisində, dövlət müstəqilliyimizin bərpasının 30-cu ilində milli istiqlalımıza əvəzsiz xidmətlər göstərmiş Əhməd Cavad kimi qüdrətli şəxsiyyətlərimizi ehtiramla xatırlayırıq. Çünki Azərbaycançılıq məfkurəsi ilə zəngin ədəbi-bədii yaradıcılığa malik Əhməd Cavad Azərbaycan istiqlal düşüncəsi, milli müstəqillik mücadiləsi və milli ideologiyasının görkəmli nümayəndələrindən biri və hər gələn yeni nəsillər üçün milli istiqlal kitabı və vətəndaşlıq nümunəsidir.*

**Ramiz QASIMOV**
**AMEA Naxçıvan Bölməsinin əməkdaşı,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

“Sənaye ili” – 2022

# Darıdağ Karbon Qazı Zavodu Cənubi Qafqazda təbii yolla ən çox karbon qazı istehsal edən yeganə müəssisədir



***2022-ci ilin “Sənaye ili” elan olunması muxtar respublikamızda fəaliyyət göstərən sənaye müəssisələrinin fəaliyyətini daha da aktuallaşdırıb. Ötən il 1 milyard 655 min 700 manatlıq sənaye məhsullarının istehsal olunduğu muxtar respublikada elə müəssisələr var ki, istehsal profillərinə görə təkcə regionumuzda deyil, ümumilikdə, Cənubi Qafqazda seçilir. Haqqında bəhs edəcəyimiz “Karbon Qazı Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyəti də məhz belə müəssisələrdəndir. Təməli 1985-ci ildə qoyulmuş zavodun fəaliyyətində bu gün hansı yenilikləri müşahidə edirik və burada istehsal prosesləri necə aparılır? Bu və ya digər suallarımıza müəssisənin direktoru Elman Seyidovla söhbətimizdə aydınlıq gətirdik.***

Müsahibimiz bildirdi ki, zavod ötən əsrin 70-ci illərində Culfa rayonunun Darıdağ ərazisində su yataqlarının bazasında karbon qazının alınması məqsədilə aparılan kəşfiyyat işlərinin uğurlu nəticələri nəzərə alınaraq tikilib. Əvvəllər müxtəlif dövlət qurumlarının tabeliyində olan müəssisədən, əsasən, mineral suların və şampan içkilərinin qazlaşdırılmasında istifadə olunub. Sonrakı illərdə isə müəssisənin istehsal gücündən səmərəli istifadə edilməyib. Yalnız 2008-ci ildə müəssisə yenidən qurularaq istifadəyə verildikdən sonra zavodun fəaliyyəti qənaətbəxş hesab olunub. Hazırda “Nəqşicahan Holdinq” Şirkətlər Qrupunun nəzdində fəaliyyət göstərən zavod Gürcüstandakı kiçikhəcmli istehsal istisna olmaqla, ümumilikdə, Cənubi Qafqazda təbii şəkildə ən çox karbon qazı istehsal edən tək müəssisədir.

Öyrəndik ki, yataqdakı yerin dərin qatlarından çıxan arsenli suyun ən üstün cəhətlərindən biri onun tərkibindəki karbon qazının çox olmasıdır. Karbon qazı təbii yolla 900 metr dərinlikdəki iki quyudan çıxarılaraq emal olunur. Mineral su yatağından borularla gətirilən xammal zavodda üç mərhələdə sıxılıb soyudularaq maye halına salınır, xüsusi filtrlərlə təmizləndikdən sonra anbara ötürülür. Sifarişləri ünvanlarına vaxtında çatdırmaq üçün müəssisənin maye karbon qazı daşıyan 20 tonluq Avropa standartlarına uyğun avtosisternləri var. Zavod bu gün muxtar respublikamızda mineral su və qazlaşdırılmış digər içkilər istehsal edən müəssisələrlə yaxından əməkdaşlıq edir. Həmçinin istehsal olunan karbon qazı ölkəmizdə bu sahə üzrə fəaliyyət göstərən bir çox müəssisələrə göndərilir. Hazırda zavodun karbon qazı üzrə illik istehsal gücü 6300 tondur.

Müəssisədə quru buz da istehsal olunur. Ondan, əsasən, tibb müəssisələrində, dondurma istehsalında, qida məhsullarının saxlanıldığı anbarlarda istifadə olunur. Karbon qazının sürətlə buxarlanması yolu ilə əldə edilən quru buzun istehsalı üçün burada qəliblər quraşdırılıb. Müəssisənin quru buz üçün illik istehsal gücü 50 tondur. Yeri gəlmişkən onu da qeyd edək ki, əvvəllər bu məhsula tələbat idxal hesabına ödənilirdi.

Karbon Qazı Zavodunda daha yeni bir məhsul istehsalına isə 2018-ci ildən başlanılıb. Belə ki, həmin ildən burada təbii müalicə məqsədilə Darıdağ suyundan alınmış duz istehsal edilir. 200 qramlıq paketlərdə istehsal olunan Darıdağ suyunun duzu radikulit, osteoxondroz, fəqərə diskinin sıxılması, dəri və ginekoloji xəstəliklərin müalicəsində istifadə edilir. Bundan əlavə, zavodda 1 kiloqramdan 50 kiloqramadək quru tozlu, kimyəvi köpüklü və karbon qazlı ilkin yanğınsöndürmə cihazlarının doldurulması da həyata keçirilir. Müsahibimizin sözlərinə görə, yanğınsöndürmə cihazlarının doldurulması əvvəllər qonşu ölkələrin ərazilərində həyata keçirilirdisə, bu gün artıq müəssisə bu sahədə olan boşluğu aradan qaldırıb və uyğun qiymət, keyfiyyətli məhsulla istehlakçıların ehtiyacını təmin edir.

Müəssisədə keyfiyyətə nəzarət etmək üçün akkreditasiya olunmuş sınaq laboratoriyası da fəaliyyət göstərir. Burada istehsal olunan məhsulların hər mərhələdə analizləri aparılır, nəticədə, keyfiyyət göstəriciləri ən yüksək tələblərə cavab verir. Təsadüfi deyil ki, müəssisə “İlin məhsulu” nominasiyası üzrə iki dəfə – “Biznesdə uğur – 2009” və “Biznesdə uğur – 2017” mükafatlarına layiq görülüb.

Elman Seyidov onu da vurğuladı ki, bu gün muxtar respublikamızda fəaliyyət göstərən istehsal müəssisələrinin yeni dövrün tələblərinə uyğun fəaliyyət göstərməsi diqqət mərkəzində saxlanılır. Məhz bu baxımdan ərazidə yeni geoloji-kəşfiyyat işlərinin aparılmasına başlanılıb. Artıq müsbət



nəticələr əldə olunub. Müəssisənin müasir texnoloji avadanlıqlarla təchiz olunması da planlaşdırılıb. Bu isə növbəti mərhələdə burada istehsal olunan məhsulların xarici bazarlara çıxarılmasını zərurətə çevirir. Həmsöhbətimizin sözlərinə görə, Zəngəzur dəhlizinin istifadəyə verilməsi istehsal olunan karbon qazının uzaq məsafələrə daha uyğun qiymətlərlə daşınmasına imkan yaradacaq ki, bu da, nəticədə, muxtar respublika iqtisadiyyatına öz töhfəsini verəcək.

*Bəli, Naxçıvan Muxtar Respublikası mühüm sənaye potensialına malikdir. İttifaq dövründən fərqli olaraq indi muxtar respublikada bu potensialdan qənaətlə və səmərəli şəkildə istifadə olunur. Bu gün iqtisadi proseslərdə insan amilinə verilən dəyər, müasir kadr hazırlığı istiqamətində görülən işlər, innovativ texnologiyalara əsaslanan istehsal prosesləri yaxın gələcəkdə muxtar respublika sənayesində yeni mərhələnin başlanğıcına çevriləcək.*

✍ **Səbuhi HƏSƏNOV**

# Nümunəvi məşğələ təşkil olunub



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xüsusi təyinatlı və avtomobil nəqliyyatı, yanğınsöndürən, əməliyyat-minik avtomobilləri vasitələri yaz-yay mövsümi istismarı şəraitinə keçirilib. Bununla əlaqədar nazirliyin Mülki Müdafiə Alayında və Kəngərli Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsində nümunəvi məşğələ təşkil olunub.

Şəxsi heyətin bilik və bacarıqlarının təkmilləşdirilməsi, texnikaların, avadanlıqların və cihazların sıradan çıxmasının, baş verə biləcək nasazlıqların, qəzaların və zədələnmələrin qarşısının alınması üzrə müvafiq tədbirlərin yerinə yetirilməsinin öyrədilməsi məqsədilə keçirilən məşğələdə əvvəlcə xüsusi təyinatlı xilasetmə, yanğınsöndürmə və yük avtomobillərinin, digər mühəndis texnikalarının yaz-yay mövsümi istismarı şəraitinə keçidi ilə əlaqədar əmr və plan şəxsi heyətə çatdırılıb.

Daha sonra bu proses zamanı görülən işlər, park xidmətinin, yanğından mühafizənin təşkili, mühəndis avadanlıqlarına, su nasoslarına, xilasedici qayıqlara, dalğıc avadanlıqlarına, akkumulyator batareyalarına, səhra mətbəxlərinə, xilasetmə avadanlıqlarına və digər vasitələrə texniki xidmətin göstərilməsi praktik olaraq nümayiş etdirilib.

Texnikaların yaz-yay mövsümi istismarı şəraitinə keçidi zamanı istifadə olunan texniki mayelərin, turşuların və qələvilərin təhlükəsiz istifadə qaydaları və zəhərlənmələrə qarşı ilk tibbi yardımın göstərilməsi də şəxsi heyətin diqqətinə çatdırılıb.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

*Ölkənin turizm imkanlarının geniş auditoriyaya çatdırılması məqsədilə səyahət üzrə metaaxtarış mühərriki olan “Wego” platformasında onlayn kampaniyaya start verilib.*

# Duzdağ turizm məhsulu “Wego” platformasında təbliğ edilir



Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti arasında təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı 2020-2023-cü illər üzrə birgə Tədbirlər Planı”nın Sağlamlıq turizmi bölməsinin icrası ilə əlaqədar olaraq Duzdağ turizm məhsulunun inkişaf etdirilməsi məqsədilə Duzdağ Fizioterapiya Mərkəzi haqqında məlumatlar da “Wego” platformasına yerləşdirilib.

Kampaniya çərçivəsində “Wego” şirkətinin “Facebook” və “Instagram” hesablarında reklam bannerləri, vebsaytında isə paytaxt Bakıda istirahət, şəhərin qədim və müasir elementlərinin vəhdəti, palçıq vulkanları, eləcə də Şirvan və Qızılağac Milli parklarında quş müşahidəçiliyi, Naxçıvanda Duzdağ Fizioterapiya Mərkəzi və ölkəyə səyahətin asanlığı kimi məlumatları çatdıran geniş məqalə yerləşdirilib.

Saytda Duzdağ mağarasının fotoşəkli və aşağıda göstərilən məlumat yerləşdirilmişdir: “Duz müalicəsinin Azərbaycanın bütün kurortlarında təklif olunduğu məlumdur, lakin ən orijinal təcrübə üçün Duzdağa baş çəkin, burada yeraltı tunelləri duz müalicəsi üçün aparıcı mərkəzə çevrilmiş keçmiş duz mədəni olan mağara ilə tanış olacaqsınız. Bura müraciət edənlərə həkimlər və fizioterapevtlər tərəfindən xidmət göstərilir. Duzdağda tənəffüs xəstəliklərini müalicə etmək qabiliyyəti ilə tanınan 130 milyon ton təmiz təbii duzun olduğu güman edilir. Tam təcrübə üçün mərkəzin yeraltı mağaralarından birində gecələyərkən duzun müalicəvi faydasını düşünərək sükutdan zövq alın”.

Avqustun 15-dək davam edəcək kampaniya çərçivəsində sosial media hesablarında yerləşdirilən reklamlar istifadəçiləri müvafiq səhifələrə yönəldərək həm ölkənin turizm potensialı haqqında məlumatlılığı artırmağa, həm də səyahətin asan şəkildə planlaşdırılmasına xidmət edəcək.

Qeyd edək ki, “Wego” şirkətinin əsası 2005-ci ildə Sinqapurda qoyulub. Səyahət üzrə metaaxtarış mühərriki rolunu oynayan şirkət Asiya-Sakit okean regionu, Yaxın Şərq və Hindistan üzrə fəaliyyət göstərərək istifadəçiləri mövcud uçuş və hotel qiymətlərini müqayisə edə biləcəkləri platforma ilə təmin edir.

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti***

# Tibb işçilərinin sertifikasiya imtahanlarına start verilib

Mərkəzləşdirilmiş qaydada ilk dəfə keçirilən tibb işçilərinin sertifikasiyası onların bilik səviyyəsinin, peşə hazırlığının, ümumi dünyagörüşünün, səhiyyə müəssisələrində işləməyə layiqli olmasının müəyyən edilməsi məqsədilə keçirilir. Səhiyyə mütəxəssisləri peşəkarlıq səviyyəsinin və peşə yararlığının yoxlanılması məqsədilə 5 ildə bir dəfə sertifikasiyaya cəlb edilirlər. Sertifikasiyadan keçərən işçilər 6 ay müddətində iş yeri saxlanılmaqla, müvafiq təhsil müəssisələrində və ya iş yerində təcrübədə olmaqla peşə hazırlığı keçərək, təkrar sertifikasiya olunmaq məqsədilə ixtisasları üzrə növbəti imtahanda iştirak etmək üçün müraciət etməlidirlər. Sertifikasiyadan təkrarən keçməyən işçilərlə əmək münasibətləri qanunvericiliyə uyğun olaraq tənzimlənir.

Ali və orta ixtisas tibb təhsili müəssisələrini, o cümlədən rezidenturanı bitirmiş şəxslər qanunvericiliyə uyğun olaraq təhsilini təsdiq edən sənədin verildiyi gündən və ixtisasını qanunvericiliyə uyğun olaraq dəyişdirmiş səhiyyə mütəxəssisləri yeni ixtisasını təsdiq edən sənədin verildiyi gündən 5 il müddətində sertifikasiyadan keçmirlər.

Qeyd edək ki, tibb ixtisasları üzrə ali və orta ixtisas təhsilli şəxslərin sertifikasiyasının aparılması Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 oktyabr tarixli “Naxçıvan Muxtar Respublikasında tibb işçilərinin dövlət səhiyyə müəssisələrinə işə qəbulu və sertifikasiyasının aparılması qaydaları”nın təsdiq edilməsi haqqında Qərarına əsasən həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

# Narkotik qaçaqmalçılığı cəhdinin qarşısı alınıb



Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində Naxçıvan gömrükçüləri tərəfindən daha bir uğurlu əməliyyat həyata keçirilib. Belə ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Türkiyə Respublikası vasitəsilə Almaniya Federativ Respublikasına biyan kökü yükü aparan 29E39310 dövlət nömrə nişanlı “RENAULT” markalı nəqliyyat vasitəsinə Şahtaxtı dövlət sərhədindən buraxılış məntəqəsində risk meyarı əsasında gömrük baxışı həyata keçirilib. Gömrük baxışı keçirilən zaman əməkdaşların sayıqlığı nəticəsində nəqliyyat vasitəsinin yanacaq çənində xüsusi olaraq hazırlanmış və aşkarlanması çətinləşdirilmiş saxlanc yerində gizlədilmiş maye halında xalis çəkisi 8 kiloqram 700 qram olan narkotik vasitə-heroin aşkar olunub. Qeyd olunan faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) cinayət işi açılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# Ötən şənbə günü 2121 ağac, 540 gül və bəzək, 200 üzüm kolu əkilib

Ötən dövr ərzində diyarımızda ekologiyanın mühafizəsi, bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində də mühüm tədbirlər həyata keçirilib. Cari ildə də bu tədbirlər davam etdirilməkdədir. Aprelin 30-da Duzdağ Fizioterapiya Mərkəzinin yaxınlığındakı bağda yaşıllıqlara aqrotexniki qulluq göstərilib, suvarma işləri görülüb, dairəvi avtomobil yolunun kənarlarında 93 meyvə ağacı, şəhər ərazisində yol kənarlarında 68 həmişəyaşıl ağac və 240 gül kolu əkilib, ahıl vətəndaşın evində təmizlik işləri aparılıb.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda Günnüt yolunun kənarlarında 2,3 hektarlıq ərazidə 550 meyvə ağacı, Şərur şəhərinə gedən avtomobil yolunun kənarlarında isə 170 həmişəyaşıl ağac əkilib.



Həmin gün Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilib. Naxçıvan-Şahbuz magistral yolunun Vayxır kəndindən keçən hissəsində yaşıllıqlara aqrotexniki qulluq göstərilib, damcı üsulu ilə suvarma işləri aparılıb.

Bağlar diyarı Ordubad rayonunda Bayraq Meydanının qarşısındakı yaşıllıq sahəsində 200 meşə ağacı, Əylis kəndi yolunda 300 qızılgül kolu əkilib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Culfa rayonunda da həmin tədbirlər davam etdirilib. Naxçıvan-Culfa-Ordubad magistral yolunun kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilib, budama işləri aparılıb.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral avtomobil yolunun Qabıllı kəndi hissəsindəki 4 hektarlıq ərazidə yaşıllıqlara aqrotexniki qulluq göstərilib, budama və suvarma işləri aparılıb.

Şahbuzlular Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolunun Biçənək kəndindən keçən hissəsində bərpa məqsədilə 300 meşə ağacı, Şahbuz şəhəri ərazisində isə 200 üzüm tingi əkiblər.

Sədərək rayonunda da yaşıllıqlara aqrotexniki qulluq göstərilib, suvarma işləri aparılıb.

Ekoloji tədbirlərdə 18 min 915 nəfər iştirak edib. Ümumilikdə, 2121 olmaqla, 500 meşə ağacı, 643 meyvə ağacı, 138 həmişəyaşıl ağac, 540 gül və bəzək kolları, 200 üzüm kolu əkilib.

**Xəbərlər şöbəsi**

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında Xalçaçı Günü peşə bayramının təsis edilməsi haqqında” 2016-cı il 25 noyabr tarixli Sərəncamına əsasən hər il mayın 5-i ölkəmizdə Xalçaçı Günü peşə bayramı kimi qeyd edilir.***



5 may Xalçaçı Günüdür

# Naxçıvan xalçaçılıq sənəti qədim ənənələrə malikdir

Azərbaycanda toxuculuğun tarixi 5-7 min il bundan əvvələ gedib çıxır. Naxçıvanda duz istehsalına başlanması, duzun tədavülü və daşınmasında torba və xurcunlardan istifadə toxuculuq sənətinin də qədim tarixindən xəbər verir. Toxuculuğun inkişafı isə xalçaçılıq sənətinin yaranması üçün geniş imkanlar açmışdır. Herodot, Klavdi Elian, Ksenofont və digər qədim dünya tarixçilərinin əsərlərində, “Kitabi-Dədə Qorqud” dastanında, Nizami Gəncəvi, Əfzələddin Xaqani və başqa şairlərimizin yaradıcılığında Azərbaycan xalçaları haqqında məlumatlar verilmiş, bu dəyərli mədəni irsimiz tərənnüm olunmuşdur. Görkəmli Azərbaycan və dünya rəssamlarının tablolarında da təsvir olunan xalçalarımız bu gün dünyanın məşhur muzeylərinin ən dəyərli eksponatlarındandır.



***“Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür”***, – deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə xalçaçılığın yaşadılması və inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Ötən əsrin 70-ci illərində Azərbaycanda Xalça Muzeyinin yaradılması, bu sahə ilə məşğul olan tədqiqatçıların, xalçaçıların diqqət və qayğı ilə əhatə edilməsi ulu öndərimizin mühüm xidmətlərindəndir. Xalçaçılıq sənətinin inkişafı sahəsində aparılan iş bu gün uğurla davam etdirilir. Ölkə rəhbərinin mədəniyyətimizin inkişafı ilə bağlı tövsiyə və tapşırıqları milli-mənəvi dəyərlərimizin, xalq sənəti növlərinin mühafizəsi və inkişafı üçün zəmin yaratmışdır. 2010-cu ildə xalça sənətimiz YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ irs siyahısına daxil edilmişdir. Azərbaycan Prezidentinin 2018-ci il 28 fevral tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” təsdiq olunmuşdur.

Naxçıvanda xalçaçılıq sənəti qədim tarixə və ənənələrə malikdir. Naxçıvan diyarındakı I Kültəpə ərazisindən tapılan xalçaçılıqla bağlı 177 alət tədqiqatçılar tərəfindən Kür-Araz mədəniyyətinə aid edilir. Şərur rayonundakı Ovçular təpəsindən 2019-cu ildə aşkar olunmuş sümük alətlər, o cümlədən toxuculuqda istifadə edilən biz məmulatları insanların Naxçıvan ərazisində hələ Eneolit dövründən toxuculuqla məşğul olduğunu sübut edən tutarlı faktlardandır. Naxçıvan Muxtar Respublikasının ərazisindən tapılmış ən qədim xalça hissələri, eləcə də ibtidai gil cəhrələr burada hələ qədimdən toxuculuq sənətinin inkişaf etdiyini göstərir.

Xalçaçılıq Naxçıvanda Tunc dövründən başlayaraq inkişaf etmiş, daha da zənginləşərək bu günümüzə gəlib çatmışdır. Orta əsr ərəbdilli mənbələrdə Naxçıvanda xalçaçılığın inkişafı və bu ərazidə toxunan xalçaların dünya bazarında satılması haqqında maraqlı məlumatlara rast gəlmək mümkündür. 982-ci ildə ərəb dilində yazılmış “Hüdüd-əl-Aləm” (“Dünyanın sərhədləri”) adlı əsərdə Naxçıvanda toxuculuğun inkişafı haqqında qeydlər öz əksini tapmışdır. Bütün bunlar da onu bir daha sübut edir ki, Naxçıvan ərazisində xalça toxuma sənəti eramızdan əvvəl IV-III minilliklərdə yaranmışdır. X-XII əsrlərdə Naxçıvanda xalçaçılıq elə yüksək səviyyəyə çatmışdır ki, Azərbaycanın şəhərlərində toxunan müxtəlif növ xalçaların ornament və təsvirlərinin tərtibatında naxçıvanlı sənətkarların əl işlərindən geniş istifadə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Xalça toxumaq sənəti tarixən Azərbaycanda, o cümlədən Naxçıvanda aparıcı peşə sahələrindən biri olmuşdur. Təbiəti, ictimai və mədəni inkişaf səviyyəsi, həyat və məişət şəraiti Naxçıvanda xalçaçılığı hələ uzaq keçmişlərdə sənətkarlığın mühüm sahələrindən birinə çevirmişdir. Bu ərazidə istehsal edilən iriölçülü, qalın toxunuşa malik xovlu və xovsuz xalçalardan məişətdə geniş istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı əldə olunmuş ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları Naxçıvanın qədim toxuculuq mərkəzlərindən biri olduğunu təsdiq edir”.***

Qədim ənənələrə malik Naxçıvan xalçaçılıq sənəti bu gün də yaşadılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı bu qədim sənətin inkişafı və təbliği sahəsində də yeni imkanlar açmışdır. Naxçıvan Dövlət Xalça Muzeyi ölkəmizdə müstəqillik illərində yaradılan ilk muzeylərdəndir. 1998-ci ildə yaradılan bu muzey 2010-cu ildə yeni binaya köçürülmüşdür. Yarandığı vaxt 359 eksponatla fəaliyyətə başlayan muzeyin eksponatlarının sayı bu gün 3 mindən artıqdır. 2013-cü ildə muzey yenidən qurulmuşdur. Muzeyin internet saytının yaradılması ilə dünyanın hər yerindən muzeyi virtual ziyarət etməyə, ziyarətçilərin ekspozisiyadakı eksponatlarla bağlı məlumatlar almalarına, həmçinin tarixi keçmişimizi öyrənmələrinə imkan yaratmışdır.





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Xalça Muzeyinə də ekskursiyalar təşkil olunur. Bu gün Naxçıvan Dövlət Xalça Muzeyi mədəni mərkəzə çevrilmişdir. Burada xalçaçılıqla bağlı mütəmadi sərgilər təşkil olunur, kitab təqdimatları, elmi konfranslar keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” bu sahədə görülən işləri daha da sürətləndirmiş, xalçaçılıq ənənələrinin daha dərindən öyrənilməsi, araşdırılması və təbliği üçün geniş imkanlar açmışdır. Dövlət proqramında milli xalçaçılıq ənənələrinin qorunması və inkişaf etdirilməsi, ixrac potensialının artırılması və əhalinin məşğulluğunun təmin edilməsi kimi vəzifələr müəyyənləşdirilmişdir. Dövlət proqramının icrası ilə bağlı yaradılmış “Əllə toxunmuş xalçaların reyestri sistemi”nə 635 xalça haqqında məlumatlar daxil edilmişdir.

Muxtar respublikada xalq yaradıcılığı sahələrinin inkişafı, insanların bu sənətə olan marağının artırılması məqsədilə Şərur rayonundakı Cəlilkənddə XIX əsrə aid Buxzana kompleksində xalçatoxuma sahəsi fəaliyyətə başlamışdır. Həmçinin “Ənənəni qoruyaq, evdə xalça toxuyaq” sosial layihəsi çərçivəsində naxçıvanlı xalçaçı qadınlarla müqavilələr bağlanılmış, milli çeşnilər əsasında evlərdə xalça toxunması məqsədilə onlar material və avadanlıqlarla təmin olunmuşlar. Bu, məşğulluğu təmin etməklə yanaşı, həm də xalçaçılıq sənətinin yaşadılması istiqamətində atılan mühüm addımlardandır. Xalçaçılıq sahəsini inkişaf etdirmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması da davam etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 24 noyabr tarixli müvafiq Sərəncamı əsasında “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması istiqamətində işlər davam etdirilir. Görülən işlər əhalinin məşğulluğunun təmin olunması sahəsində xalçaçılığın rolunu artırır və eyni zamanda bu sahədə yeni turizm məhsullarının ərsəyə gəlməsinə zəmin yaradır.

Bu gün Naxçıvan Dövlət Xalça Muzeyində, Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət ixtisası üzrə təhsil alan tələbələrin iştirakı ilə açıq dərslər təşkil olunur. Muxtar respublikanın bölgələrində xalçaçılıq kursları fəaliyyət göstərir. Xalçatoxuyanlar üçün lazımi şərait yaradılır. Həmçinin Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçılıq üzrə peşə kurslarının, Naxçıvan Qızlar Liseyində “Tikiş, toxuculuq və xalçaçılıq” dərnəyinin fəaliyyət göstərməsi, “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında xalça toxunmasının təşkili, muxtar respublikanın kəndlərində xalçatoxuyan qadınların hana və digər zəruri ləvazimatlarla təmin olunması xalçaçılığın inkişafına öz töhfəsini verir.

*Xalçaçılıq sənətinin hər bir nümunəsi xalqımızın gündəlik həyat tərzini özündə ehtiva edən, onun bədii-estetik dünyagörüşünün zənginliyindən soraq verən sənət əsərləridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Naxçıvan xalçaları, sadəcə, xalça deyil, bunlar həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə yaşadan qiymətli nümunələrdir. Ona görə də bu nümunələrin öyrənilməsi, tədqiqat işlərinin davam etdirilməsi bundan sonra da diqqət mərkəzində saxlanılmalıdır”.***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Birinciliyin qalibləri müəyyən olub

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş kross qaçışı üzrə ali və orta ixtisas təhsili müəssisələrinin, o cümlədən şəhər və rayon komandalarının atletləri arasında keçirilən Naxçıvan Muxtar Respublika açıq birinciliyinə yekun vurulub.*



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atletika Federasiyasının birgə təşkil etdiyi birincilik Duzdağ magistral yolunun 5 kilometrlik məsafəsində keçirilib. Turnirdə 170-dən çox atlet mübarizə aparıb.

Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı bildirib ki, bu gün muxtar respublikamızda nüfuzlu idman tədbirlərinin keçirilməsi üçün hər cür şərait yaradılıb. Bütün idman obyektləri, idman zalları, eləcə də məktəblərin idman zalları yenidən tikilib və ya bərpa olunaraq istifadəyə verilib. Bu da yeniyetmə və gənclərin fiziki sağlamlıq və idman vərdişlərinin formalaşmasında mühüm rol oynayır. Bu gün kross üzrə keçirilən yarışda yeniyetmə və gənclərin iştirakı, onların birincilik uğrunda mübarizə aparması bunun bariz nümunəsidir. Gənclər və idman naziri göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının sədri Rəhman Məmmədov çıxışında vurğulayıb ki, ölkəmizdə idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Azərbaycana rəhbərliyi dövründə digər sahələr kimi, idmana da qayğı ilə yanaşıb. Muxtar respublikamızda da bütün sahələrdə olduğu kimi, təhsil və idmanın inkişafına xüsusi diqqət yetirilir. Bu gün diyarımızda idmanın inkişafı istiqamətində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, asudə vaxtlarının səmərəli təşkili daim diqqət mərkəzində saxlanılır. Müasir idman infrastrukturunun, eyni zamanda idmanın müxtəlif növləri üzrə federasiyaların fəaliyyət göstərməsi yeniyetmə və gənclərin idmana kütləvi şəkildə cəlb olunmasına imkanlar açır. Belə federasiyalardan biri də Atletika Federasiyasıdır. Federasiya son iki ildə muxtar respublikada bu sahənin inkişafı üçün mütəmadi olaraq tədbirlər keçirir, yarışlar təşkil edir, məşqçilərin təcrübələrinin artırılması üçün seminarlar təşkil olunur. Bunun nəticəsidir ki, idmançılarımız keçirilən ölkə çempionatlarında uğurla çıxış edirlər.

Rəhman Məmmədov qeyd edib ki, Naxçıvanda istifadəyə verilən yeni tikililər arasında idman obyektlərinin çoxluq təşkil etməsi mühüm hadisədir. Bu, digər növlər kimi atletikanın da kütləviliyinin təmin edilməsinə imkan verir. Federasiya sədri yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib, iştirakçılara uğurlar arzulayıb.

Birinciliyin yekun nəticəsinə gəlincə, oğlanlar arasında Rəhim Əliyev (Hərbi Lisey) finiş xəttinə hamıdan tez çatıb. Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Taleh Yaqublu ikinci, “Naxçıvan” Universitetinin tələbəsi Sənan Əşrəfov isə üçüncü olub.

Qızların mübarizəsində isə ilk üç pillədə Sədərək idmançıları qərarlaşıb. Belə ki, Aysu Abbasova birinciliyin qalibi adını qazanıb. Zeynəb Babayeva və Zülfiyyə Süleymanova isə finiş xəttinə ikinci və üçüncü çatıblar.

Sonda ilk on pillədə qərarlaşan idmançılara diplom, fəxri fərman və hədiyyələr təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

“Dizayn Layihə” Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN:0300390621) qeydiyyat şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

***

Zeynalov Rəvan Kazım oğlunun adına olan sürücülük vəsiqəsi (AB 593514) itdiyindən etibarsız sayılır.

***

Abutalıbov Ramiz Abutalıb oğlunun adına olan Naxçıvan şəhəri, Çənlibel məhəlləsi bina 25, ev 43-ün 13.11.2007-ci il tarixli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Muğancıq-Müslüm kənd sakini Hüseynov Fərəməz Mikayıl oğlunun adına olan A-021905 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü, 0067827 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Əliyev Kamal Zahid oğlunun adına olan 75BF025 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 371